KASPİ GLOBAL
Xaricdə Təhsil Xidmətləri

**Tarix:** 30 dekabr 2023 **Versiya:** 1.0

# Çin təhsil vizasına müraciət qaydaları

## ƏSAS SƏNƏDLƏR

1. **Pasport**
   - Pasport əsli və 1 ədəd surəti (əsas, vizalar, ölkələrə giriş-çıxış möhürləri olan səhifələr) ilə hazırlanmalıdır.
2. **Şəxsiyyət vəsiqəsi**
   - Şəxsiyyət vəsiqəsi əsli və 1 ədəd surəti ilə hazırlanmalıdır.
3. **Milli viza üçün ərizə forması**
   - https://cova.cs.mfa.gov.cn/ keçidi üzərindən doldurulmalıdır;
   - Ərizə 1 ədəd hazırlanmalıdır;
   - Ərizə çap olunmalı və imzalanmalıdır.
4. **Rəngli fotoşəkil**
   - 1 ədəd tələb olunur;
   - Ölçüləri 3.5×4.5 sm, ağ fonda və biometrik olmalıdır;
   - Ən köhnə halda 6 ay ərzində çəkilməlidir.
5. **Maliyyə dəstəyinin sübutu**
   - Maliyyə sənədləri qeyd olunan variantların biri (və ya bir neçəsi) ilə sübut oluna bilər:
     - təqaüd qazanılması barədə məktubla;
     - sponsor tərəfindən verilmiş zəmanət məktubu ilə;
     - bank hesabı və həmin hesaba minimal məbləği (2023-cü il üçün minimum 3,500 ABŞ dolları) mədaxil etməklə;
     - müntəzəm gəlirləri sübut edən digər (məsələn, daşınmaz əmlak kirayəsi, səhm gəlirləri və s.) sənədlərlə.
   - İngilis dilində olmayan sənədlər ingilis dilinə notarial tərcümə olunmalıdır.
6. **Qəbul məktubu**
   - Hər hansı bir Çin universiteti tərəfindən verilmiş qəbul sənədi.
7. **Viza müraciət forması**
   - Xarici tələbələr üçün elektron viza müraciət formasının (JW202) çap olunmuş versiyası.
8. **Uçuş biletinin bronu**
   - Təktərəfli təyyarə biletinin bronu;
   - Biletin görüşdən 1 gün əvvəl bron olunması tövsiyə olunur.

## MÜRACİƏT QAYDASI

1. https://avas.mfa.gov.cn/ keçidi üzərindən uyğun gün seçilməli və təsdiqlənməlidir.

## QEYD

- Müraciət zamanı Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyində şəxsi iştirak tələb olunur;
- Səfirlik əlavə sənədləri tələb etmək hüququnu özündə saxlayır;
- Viza müraciətininin cavablandırılması üçün müddət 1 aya qədər çəkə bilər;
- Viza üçün sənədlərin tam şəkildə təqdimatı müraciətin müsbət cavablandırılacağına zəmanət vermir;
- Viza üçün rüsumlar istənilən halda geri qaytarılmır.

**Kaspi Global**
Zivərbəy Əhmədbəyov 2K, AZ1009, Bakı
+994 50 642 39 09 | study.abroad@kaspi.edu.az | kaspiglobal.com